Mayın 5-də Elm və Təhsil Nazirliyinin kollektivi ulu öndər Heydər Əliyevin 100 illiyinə həsr olunmuş ağacəkmə kampaniyasında iştirak edib.

Elm və təhsil nazirinin müavini Firudin Qurbanov, nazirliyin Maliyyə şöbəsinin müdiri, Yeni Azərbaycan Partiyası Nərimanov rayon təşkilatının Elm və Təhsil Nazirliyi ərazi partiya təşkilatının sədri Rauf Orucov, Yeni Azərbaycan Partiyası Nərimanov rayon təşkilatının sədri Samir Vəliyev, Nərimanov rayon bələdiyyəsinin sədri Təmraz Tağıyev ulu öndər Heydər Əliyevin Azərbaycanın inkişafındakı rolundan, göstərdiyi xidmətlərdən danışıblar.

Tədbirdə Elm və Təhsil Nazirliyinin 5 nəfər əməkdaşının Yeni Azərbaycan Partiyası sıralarına qəbul edilməsi dəstəklənib.